# AĞKİLSƏ ÜÇÜN DARIXMIŞIQ...

*Azərbaycanın tarixi torpaqları olan İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Ağdaban erməni şovinistləri tərəfindən, havadarlarının köməyi ilə zor gücünə qoparılaraq özününküləşdirilmiş, türk-müsəlman əhalisi deportasiya edilmişdir. Dövlət başçısı cənab İlham Əliyev öz çıxışlarında vurğulamışdır: "Bu tarixi torpaqlar unudulmamalıdır və biz bu torpaqları unutmuruq. Bu da gələcək fəaliyyətimiz üçün istiqamət olmalıdır, necə ki, biz bu gün də bu istiqamətdə iş görürük. Bizim tarixi torpaqlarımız İrəvan xanlığıdır...". Bu gün Qərbi azərbaycanlılar yurd həsrəti ilə qovrulur, amma əmindirlər ki, bu arzuları çin olacaqdır. Bu inamı onlarda liderin uzaqgörənliyi və qətiyyəti yaratmışdır. Qərbi Azərbaycanın mavi gözlü, nağməli Göyçə gölü, zümrüd qaşlı Göyçə mahalı 37 ildir ki, öz sakinlərinin həsrətindədir. Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin nəslindən tanınmış sənətkarlar Göyçə mahalının Ağkilsə kənd sakinləri Ləyaqət Məmmədov və Azər Məmmədovla həmsöhbət olduq.*



**Ləyaqət Məmmədov** ürək yanğısı ilə qeyd etdi ki, 1985-ci ildən başlayaraq, erməni vandalları azərbaycanlıları sıxışdırır, rayonun mərkəzinə gedib-gəlmək çətinləşirdi. Bizim Ağkilsə kəndi, rayon mərkəzi Basarkeçərdən 16 km məsafədə yerləşirdi. Ağkilsə kəndinin yaranma tarixi XVI əsrin əvvəlinə (1610) təsadüf edir. Kəndin bünövrəsi Cənubi Azrərbaycanın Ərdəbil və Sulduz əyalətlərindən Göyçə mahalına gələn Məşədi Xavərlilər tayfasından olan dörd qardaş tərəfindən salınmışdır. Qardaşlar Göyçə mahalının ozan (aşıq) məktəbinin banilərindən biri olan Aşıq Ələsgərin təmsil etdiyi Alməmmədlilər tayfasının sakinləri ilə xala oğludurlar. Məşədi Xavərlilər Cənubi Azərbaycan xanları ilə aralarında olan uzunmüddətli çəkişmələrə tab gətirə bilmədiklərinə görə, Göyçə mahalına gələrək indiki Ağkilsə kəndində III-V əsrlərdə yaşamış albanların tarixindən bəhs edən Ağkilsəni özlərinə yaşayış yeri seçərək orada məskunlaşıb yaşamışlar. Kəndin ilk adının Ağkilsə adlandırılması da oradan yaranmışdır. Kənd şərq tərəfdən Zərzibil, qərb tərəfdən Nərimanlı, şimal tərəfdən Zod, cənub tərəfdən isə Qaraqoyunlu kəndləri ilə həmsərhəddir. Kəndin ərazisində adları Türk toponimlərdən ibarət çox mənzərəli və gəzməli qədim yurd yerləri vardır. Kəndin mərkəzində Dədə Ələsgərin qəbirüstü abidəsi və XIX əsrin sonlarında kəndin Hacılar tayfasının sakinləri tərəfindən tikilmiş məscid fəaliyyət göstərirdi. El aşığı, babamız Ələsgər sadaladığımız məkanların qeyri-adi gözəlliklərini şeirlərində tərənnüm etmişdir. Kəndin ərazisində müxtəlif dövrlərdə 3 ədəd su dəyirmanı olmuşdur. Tale elə gətirdi ki, erməni vandalları tərəfindən didərgin salındıq. Mən imkan taparaq o torpaqlardan bir qab götürə bildim, bu gün onu qoxlayaraq, təsəlli alıram. Ölkə





Prezidenti cənab İlham Əliyevin babamız sayılan qüdrətli söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi barədə Sərəncamı və sentyabrın 30-da doğma Bakı şəhərinin ən gözəl yerində, paytaxtın mərkəzində, füsunkar parkda Aşıq Ələsgərin abidəsinin ucaldılması bizi həddindən artıq sevindirdi. Bu xalqımızın milli-mədəni irs tarixinə silinməz hərflərlə yazılacaq çox əlamətdar, uzun illər gözlədiyimiz, həsrətində olduğumuz hadisə oldu... Eyni zamanda onu Ağkilsə kəndimizə qayıdışın müjdəsi hesab edirik.



**Azər Məmmədov** qeyd etdi ki, anadan olduğum Göyçə mahalı Ağkilsə kəndi yaddaşımda ən əziz, xoş, canlı bir xatirə kimi əbədi həkk olunmuşdur. Xəyalımda yaşayan Göyçə mahalı mənim üçün eyni adlı gölü ilə bərabər, Tanrının sevgi ilə yaratdığı - hər tərəfdən dağlarla əhatə olunmuş, füsunkar təbiət gözəlliyini özündə cəm etmiş ilahi bir guşədir, müqəddəs torpaqdır. Mənim üçün eyni zamanda dünyanın ən gözəl, sakit, xoş, zəngin təbiəti, axar-baxarlı, mənzərəli məkanı anadan olduğum Ələsgər yurdu Ağkilsədir. Sanki babamız Aşıq Ələsgərdən irsi keçmiş bir vergi bizi başqa kəndlərdən fərqləndirirdi. Kəndimizin in-



sanları, saz-söz sənətinə həddən çox meyilli idilər. Həmçinin rəsm və xalça toxumaq adət-ənənə halını almışdı. Ümumiyyətlə, qaynar həyatı vardı. Camaatımız əkinçilik (taxıl, kartof, tütün, yonca), heyvandarlıq, bağçılıqla məşğul olurdu. Kolxozun böyük alma, armud, gilas, alça, gavalı bağı vardı. Həyətlərdə də gözoxşayan armud, alma bağları bəzəyirdi. Dadı, tamı və ətri hər kəsi valeh edirdi. Çox vaxt bu meyvələrdən Gəncəyə qohumlara pay göndərərdik, böyük məmnunluqla qarşılanardı. Əfsuslar olsun ki, bu gün o bağlar ermənilərin əlindədir. Kənd camaatı yekdil idi. Xeyir-şərdə bir-birinin yanında olar, lazım olan köməyi əsirgəməzdi. Camaat arasında ali təhsil almış insanlara, xüsusilə müəllimlərimizə xüsusi hörmət, ehtiram vardı. Bayram ənənənlərimiz bu gün qorunub saxlanır. Göyçədə hər kənddə qədim məscidlər vardı, hər kəsin and yeri idi. Kəndimizə qonaq gələn hər kəsi, qohum-qonşu qonaq aparardı, darıxmağa qoymurdular. Göyçə mədəniyyətindən, ənənələrindən günlərlə danışsaq da, bitməz. Zəngin mədəniyyəti vardı. Evə qonaq gələndə böyüklərin yanında çörək yeməzdik. Gözəl ənənələri ata-babalarımız bizə öyrədərdilər. Oxumayan adama yaxşı münasibət göstərmirdilər ki, oxumur. Onsuz da şairlər və aşıqlar kəndi hesab olunan Ağkilsədə heç bir məclis sazsız, sözsüz, aşıqsız keçməzdi... Tale bizi müxtəlif yerlərə səpələmişdir. Amma buna baxmayaraq, yekdil olaraq, kəndimizin sakinləri ilə təmasdayıq. Ozan babamızın məzarını görmək həsrətindəyik... Hər an xatırlayırıq ki, ümummilli lider Heydər Əliyev 13 sentyabr 2002-ci ildə Goranboyda göyçəlilərlə görüşündə böyük uzaqgörənliklə demişdir: "Dünya heç vaxt belə qalmayacaq, dünyada hər şey dəyişir. XX əsrin sonu, XXI əsrin ilk illəri bunu sübut edir və göstərir ki, dünyada çox böyük dəyişikliklər gedir. Bəli, heç bir şey bir yerdə durmur. Heç bir şey olduğu kimi qalmır. Mən inanıram, tam inanıram ki, bizim bölgədə hər şey ədalət naminə dəyişəcəkdir. Azərbaycan xalqının bu əzab-əziyyətinə görə onun xeyrinə dəyişəcəkdir. Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram və bu inamla da sizin qarşınızda nitq söyləyirəm".

Bu gün dövlət başçısı cənab İlham Əliyevin apardığı uğurlu siyasət bizim Qərbi Azərbaycana qovuşmağımıza zəminlik yaratmışdır. Ölkə rəhbərinin - "Biz heç vaxt reallaşması mümkün olmayan təşəbbüslərlə çıxış etmirik. Ona görə bu sahədə də artıq proqramın üzərində iş gedir. Əminəm ki, biz buna da nail olacağıq və tarixi ədaləti bərpa edəcəyik" qızıl kəlamları bizdə qayıdışa böyük ruh yüksəkliyi yaratmışdır...

**Zabit XƏLİLOV,**
**"Respublika".**